**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SAHİBKARLIĞIN İNKİŞAFINDA QİYMƏT MEXANIZMİNDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

İxtisas: 5308.01 – "Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Esmira Canəli qızı Abdullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Xanhüseyn Hüseynağa oğlu Kazımlı**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Nəriman Bəhram oğlu Böyükkişi**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Leyla Qabil qızı Xasiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor
_________________ /**Məhiş Alış oğlu Əhmədov**
imza

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
_________________ **Zöhrab Həsən oğlu İbrahimov**
imza

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
_________________ **Rəsul Ənvər oğlu Balayev**
*imza*

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında aparılan fundamental sosial-iqtisadi islahatların effektivliyi tarixən bənzərsiz uğurlu nəticələrlə xarakterizə olunur və bəllidir ki, 2005-2020-ci illərdə ölkədə ÜDM 5,8 dəfə, o cümlədən qeyri-neft sektorunda əlavə dəyər 7,4 dəfə artıb. Azərbaycan iqtisadiyyatı qlobal pandemiyanın dağıdıcı təsirlərinə də davam gətirə bilib və 2020-ci ildə qeyri-neft sektorunda əlavə dəyər hətta 1%-ə yaxın artıb. Yoxsulluq 44,7%-dən 6,2%-ə qədər, işsizlik səviyyəsi də 7,2 %-ə qədər azalıb. Ölkənin strateji valyuta ehtiyatları 53 dəfə artaraq, 49,9 mlrd dollar olub[1]. Prezident İ.Əliyevin qeyd etdiyi kimi, "*iqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasət*dir"[2]. Bu düşünülmüş siyasət nəticəsində aqrar sektor da ölkənin ərzaq təhlükəsizliyinin təminatını çox uğurla reallaşdırır. Artıq ölkə taxıl tələbatının 68,1%-ni, ət və ət məhsullarına tələbatının 84%-ni, quş ətinə tələbatın 79%-ni, yumurta tələbatının 100%-ni daxili istehsal hesabına ödəyir. Ümumiyyətlə, çox təhlükəli geosiyasi risklərin, pandemiyanın, ölkələrarası haqsız rəqabətin, qlobal iqlim dəyişmələrinin beynəlxalq miqyasda yaratdığı mənzərə - 2021-ci ildə taxıl qiymətlərinin 33,7%, bitki yağlarının 65%, süd məhsullarının 19% artımı da təsdiq etdi ki, ərzaq təhlükəsizliyi yalnız daxili istehsalın dinamik artımı ilə reallaşa bilər və reallaşır. Belə ki, 1994-cü ildə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsulunun həcmi cəmi 143,7 mln. manat olub. 2020-ci ildə 58 dəfəlik artım baş verib və bu həcm 8 mlrd 428 mln.manata bərabərləşib. Bu illər ərzində dənli bitkilər istehsalı 1 mln.39 min tondan 3 mln.257 min tona qədər, kartof istehsalı 150,3 min tondan 1037,6 min tona qədər, ət istehsalı 109 min tondan 346,0 min tona qədər, süd istehsalı 783 min tondan 2 mln.192 min tona qədər, yumurta istehsalı 494 mln.ədəddən 1906 mln.ədədə qədər artıb. Şübhəsiz ki, Ümummilli lider H.Əliyevin ən uğurlu islahatlarından biri – Torpaq islahatı bu uğurlu nəticələrə

---

[1] *Stat.gov.az.*

[2] *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə giriş nitqi*

gətirməliydi. Ancaq Prezident İ.Əliyevin qeyd etdiyi kimi, ölkənin sosial-iqtisadi inkişafı baxımından problemlər mövcuddur. Son illərdə qlobal geosiyasi risklərin ölduqca güclənməsi, qlobal pandemiya riskləri, dünya enerji bazarındakı tektonikalar, 4-cü sənaye inqilabı erasının başlanması bütövlükdə dünya iqtisadiyyatı üçün də, ayrı-ayrı ölkələrin iqtisadi inkişafı üçün yeni çağırışları şərtləndirib. Bundan başqa 44 günlük Zəfər Savaşı ölkədə aqrar sfera və aqrar sahibkarlığın inkişafına yeni imkanlar yaradıb. 486 min hektar əkinə yararlı, üstəlik 349,4 min hektarı I və II keyfiyyət qrupuna aid torpaq faktik dövriyyəyə qaytarılıb. Dövlət bu ərazilərin sosial-iqtisadi mühitini müasir çağırışlar əsasında bərpa etməyi hədəfləyir. Bu baxımdan da dövlət iqtisadi siyasətinin daha da çevikləşməsinə, daha da əhatəliliyinə və effektivliyinə zərurət yaranıb.

Dövlət bu çağırışları nəzərə alib və "Milli Prioritetlərə" görə sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini ölkənin inkişaf magistralının ideoloji nüvəsini təşkil edir.

"Milli Prioritetlərdə" sahibkarlıq fəaliyyəti əsasında aqrar sektorun intensiv inkişaf yoluna keçməsi də nəzərdə tutulur. Çünki, "*Bilməliyik ki, sərhədlərimizin hüdudu vardır*" və "*Hədəflərimizə çatmaq üçün dövlət və özəl sektor partnyorluğu xüsusi əhəmiyyət kəsb edir*"[3]. Bu baxımdan, aqrar sferanın sahibkarlıq subyektlərinin yüksək səviyyəli dəstəklənməsi zəruridir və bu zərurət də nəzəri tədqiqatları – o cümlədən qiymət mexanizminin təkmilləşdirilməsi üzrə tədqiqatları çox aktual edir. Çünki "*ASK-da qiymətlərin tənzimlənməsi və dəyişməsi iqtisadiyyatın başqa sektorlarından köklü fərqlənir*"[4].

Beləliklə, iddia etmək olar ki, sahibkarlıq və qiymət siyasəti aqrar sektorun bugünki inkişafının ən əsas dayaqları sırasına aiddir və buna görə də sahibkarlığın inkişafı – qiymət mexanizmi qarşılıqlı əlaqələrinin ətraflı tədqiqi praktik fəaliyyət üçün çox gərəkli olan nəzəri-metodoloji nəticələrin müəyyənləşməsinə imkan yaradar.

---

[3] *İ.Əliyev. http://www.president.az/*

[4] *Воронина С.А. Механизм регулирования цен в АПК // Российское предпринимательство. — 2008. — № 9-2 (119). — с. 156-160. — URL:*

Bu problemlər iqtisadi fikir tarixində kifayət qədər geniş tədqiq olunub. J.B.Seyin, A.Smitin, D.Rikardonun, A.Marşalın, L.F.Mizesin, F.Xayekin, R.Kouzun, P.Drukerin baxışlarında sahibkarlığın iqtisadi inkişafdakı rolu, sahibkar və mülkiyyətçi əlaqələri və s.-in fundamental nəzəri əsasları əhatəli əksini tapırdı. Sahibkarlıq nəzəriyyəsinin ən möhtəşəm tədqiqatçılarından hesab edilən Şumpeter sahibkarlığı innovasiya prosesinin hərəkətverici qüvvəsi kimi xarakterizə edilirdi.

Aqrar sahibkarlığın inkişafının ən müxtəlif tərəfləri F.Martinonun, C.Françın, M.Todoronun, A.P.Pustuyev və E.S.Zoraninanın, H.H.Burdeynayanın, Q.N.Buqayevanın əsərlərində və başqaları tərəfindən əhatəli tədqiq olunub. Azərbaycan alimləri Ə.Vəliyev, S.Salahov, İ.İbrahimov, İ.Qarayev, X.Kazımlı, R.Hüseyn, V.Qasımlı, İ.Alıyevin tədqiqatlarında da bu məsələlər ətraflı araşdırılıb və iddia etmək olar ki, bu tədqiqatlar müxtəlif aqrar inkişaf proqramlarının hazırlanmasında nəzəri-metodoloji əsas kimi istifadə edilib. Aqrar sektorda qiymət mexanizminin spesifik aspektləri, sahələrarası qiymət dispariteti, aqrar sahibkarlığın dövlət dəstəklənməsi məsələləri və s. D.Katzın, E.Fernandesin, S.Pirsonun, A.Monkenin, P.Skandirronun, C.Brukkun, A.Qolubevin, D.A.Polzikovun, V.Nazarenkonun, L.Popovanın, A.B.Ziminanın tədqiqatlarında xüsusilə ətraflı araşdırılır. Ancaq hələlik posttransformasiya mühiti üçün aqrar sektorda sahibkarlıq – qiymət mexanizmi qarşılıqlı əlaqələrinin bütöv və detallı tədqiqi tam başa çatmayıb, xüsusilə aqrar sektorun resurs təminatına qiymət siyasətinin təsiri tam araşdırılmayıb.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir mühitdə sahibkarlığın aqrar sektorun inkişafındakı rolunu araşdırmaq, aqrar sahibkarlığın inkişafı - qiymət mexanizmi qarşılıqlı əlaqələrini ətraflı təhlil etmək, aqrar sektor və sahibkarlığın daha dinamik inkişafına yardım edən qiymət siyasətinin formalaşması üçün nəzəri baxımdan dolğun və praktik yararlı təkliflər müəyyənləşdirməkdir.

Dissertasiya işinin məqsədini gerçəkləşdirmək üçün aşağıdakı vəzifələri həll etmək gərəkdir:

- Sahibkarlıq anlayışını və sahibkarlığın iqtisadi inkişafdakı rolunu nəzəri-metodoloji aspektdən aydınlaşdırmaq;
- Sahibkarlığın, o cümlədən aqrar sahibkarlığın inkişafında qiymət faktorunun rolunu təhlil etmək, sahibkarlıq - qiymət

siyasəti qarşılıqlı əlaqələrinin fəaliyyət mexanizmini aşkarlamaq;

- Aqrar sektorda sahibkarlığın qiymət mexanizmi vasitəsilə dəstəklənməsinin xarici təcrübələrini araşdırmaq;
- Azərbaycanda aqrar sektorda sahibkarlığın inkişaf yolunu təhlil etmək, bu inkişafın perspektiv imkanlarını dəyərləndirmək;
- Azərbaycan aqrar sektorundakı mövcud qiymət siyasətini dəyərləndirmək, bu qiymət siyasətinin aqrar sferanın və aqrar sahibkarlığın inkişafına təsirini müəyyənləşdirmək;
- Qiymət mexanizminin aqrar sektor və aqrar sahibkarlığın inkişafının sürətlənməsinə təsir imkanlarını aşkarlamaq.

**Tədqiqatın obyekti.** Azərbaycanın aqrar sferası və aqrar sahibkarlığın fəaliyyətinin qiymət mexanizmidir.

**Tədqiqatın predmeti.** Aqrar sahibkarlığın inkişafının müasir meylləri, qiymət mexanizminin bu meyllərə təsir imkanları və istiqamətləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın nəzəri-metodoloji əsasını iqtisadi nəzəriyyənin müxtəlif məktəblərinə aid alimlərin əsərləri, sahibkarlıq və qiymət problemlərini araşdıran iqtisadçıların baxışları, sahibkarlıq və aqrar sektorun inkişafına aid hüquqi sənədlər və müxtəlif dövlət proqramları, qiymət siyasətinə aid qanunvericilik aktları və proqramlar, regional inkişaf siyasətinə aid proqramlar və s. islahat sənəd və proqramları təşkil edir.

Araşdırmalarda - aqrar sahibkarlığın inkişafı və bu inkişafa qiymət mexanizminin təsirinin nəzəri təhlilində ümumiləşdirmə, abstraksiya, tarixi təhlil, müqayisəli təhlil metodları tətbiq edilib. Aqrar sahibkarlığın inkişafı və bu inkişafa qiymət mexanizminin təsirinin mövcud vəziyyəti tədqiq olunarkən əsasən iqtisadi - statistik təhlil, analitik - hesablama metodlarından istifadə edilib. Tədqiqat üzrə alınan nəticələrin formalaşdırılmasında monoqrafik metoda güvənilib.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin statistik materialları, müxtəlif statistik nəşrlər, Beynəlxalq maliyyə qurumlarının statistik nəşr və icmalları, internet resurslarının materialları təşkil etmişdir.

**Müdafiıyə çixarilan əsas müddəalar:**

- Təbii – iqlim amilləri, o cümlədən qlobal iqlim dəyişmələri, aqrar böhranların üzünmüddətli xarakteri, aqrar sferadakı qiymət dispariteti, qlobal geosiyasi ziddiyyətlər öz-özlüyündə riskli bir fəaliyyət sferası olan kənd təsərrüfatında risk səviyyəsini bir qədər də artırır və ərzaq təhlükəsizliyinin hər bir ölkənin ən taleyüklü problemlərindən birinə çevririr. Buna görə də hər bir ölkədə iqtisadi tərəqqinin, o cümlədən aqrar sektorun inkişafının əsas lokomotivinin – aqrar sahibkarlığın dövlət dəstəklənməsi zəruri olur.
- Kənd təsərrüfatı sferasına dövlət dəstəyinin əsas və effektiv rıçağı qiymət mexanizmidir və ölkədə aqrar sektorun inkişafına pozitiv təsir göstərən, aqrar sahibkarlığa dəstək olan qiymət mexanizminin formalaşmasında xarici təcrübələrə, xüsusilə səmərəli kənd təsərrüfat sferasının yaradılması baxımından öncül olan ABŞ və AB təcrübəsinə istinad etmək – bu regionlarda aqrar qiymətlərin formalaşmasında istifadə edilən birbaşa və dolayı mexanizmlərin, o cümlədən aqrar istehsalçıların dəstəklənməsini ekolji tarazlıq və ekoloji təmiz məhsullar istehsalı ilə uzlaşdıran «yaşıl səbət» kimi mexanizmlərin Azərbaycan aqrar sferasındakı mövcud gerçəklikləri nəzərə almaqla, bu gerçəkliklərə uyğunlaşdırmaqla effektiv istifadə lazımlıdır.
- Azərbaycanda sahibkarlığın, o cümlədən aqrar sahibkarlığın inkişafına yaradılan mühiti əlverişli və aqrar sahibkarlığın dəstəklənməsi və aqrar qiymət mexanizminin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirləri ümumiyyətlə, effektiv hesab etmək olar. Bununla birgə aqrar sferada qiymət dispariteti mövcuddur və aqrar qiymətlərin təkmilləşdirilməsi tədbirlərində - birbaşa və dolayı mexanizmlər üzrə tədbirlərdə bir sıra çatışmazlıqlar var.
- Ölkənin mövcud iqtisadi mühitində aqrar qiymət mexanizminin təkmilləşdirilməsi üçün qiymət disparitet səviyyəsinin "xalis disparitet" yanaşması əsasında – yalnız satış gəlirləri və normativ xərclər nəzərə alınmaqla müəyyənləşməli, kənd təsərrüfatı məhsulları istehsalında dünya üzrə orta məhsuldarlıq göstəricilərinin 70-80%-i səviyyəsində olan təsərrüfatlara dövlət dəstəyi verilməli, təminatlı qiymətlər sisteminin – yaxud məhsul subsidiyaları tətbiq olunmalı və məhsul subsidiyaları ilə əhatə edilən aqrar məhsulların çeşidi genişləndirilməlidir. Bundan başqa aqrar qiymət mexanizminə dolayı təsirlər – təsərrüfatların iriləşdirilməsinin stimullaşdırılması, aqrar

satış kooperativlərinin formalaşdırılmasına dəstək, xüsusilə aqrar sferada innovasiya fəallığının artırılmasına dəstək – aqrar elmi-tədqiqatlara yönələn dövlət maliyyə resurslarının ciddi artımı, aqrar tədqiqatlar-özəl sektor qarşılıqlı əlaqələrinin formalaşmasına hərtərəfli yardım, təsərrüfatların iriləşməsi üçün - torpaq bazarının dinamizmi artırmaq üçün torpaq vergisinin bütövlükdə artımı, o cümlədən istifadəsiz və təyinatı dəyişdirilən torpaqlar üzrə daha yüksək artımı, kənd təsərrüfat məhsullarının qiymətinin optimallığı üçün dövlət aqrar istehsalçıların istehlakçılara birbaşa çıxışını təmin edilməsi, istehsalçıların informasiya asimmetriyasını azaldılması aqrar sektorun və aqrar sahibkarlığın inkişafında əhəmiyyətli rola malikdir.

- İşğaldan azad olunmuş ərazilərdə məskunlaşma və aqrar sferanın bərpa prosesi zamanı əvvəlki aqrar islahatlarda buraxılan nöqsanların – torpaqların çoxsaylı xırda təsərrüfatlar üzrə paylanması, kənd təsərrüfat torpaqlarının təyinatının dəyişdirilməsi, torpaqların həyətyanı sahələr üzrə səmərəsiz istifadəsi kimi nöqsanları təkrarlamaq məqsədəuyğun deyil.

**Tədqiqatın elmi yeniliyi.**

- kənd təsərrüfatı məhsullarının qiymət disparitetinin aqrar istehsalçının gəlir və xərcləri üzrə hesablanması prinsipial təhriflərə səbəb olur və buna görə də “xalis disparitetin” – yalnız satış gəlirləri ilə normativ maya dəyəri üzrə xərclərə əsasən müəyyənləşdirilən disparitetin hesablanması məqsədəuyğundur;
- postsovet regionunda qiymət disparitetinin aydınlaşdırılmasında baza dövrü kimi şərti dünya qiymətlərinin tətbiqindən – resurs və məhsulların baza və hesabat dövrü üçün dünya qiymətləri əsasında dəyərləndirilməsindən, yaxud 2005-ci ildən sonrakı dövr üçün sürüşən ekvivalent metodunun tətbiqi məqsədəuyğundur;
- birbaşa aqrar istehsalçılara yönələn subsidiyaların həcmini effektiv fəaliyyətlə uzlaşdırmaq üçün təsərrüfatlardakı məhsuldarlıq səviyyəsini nəzərə almaq və dünya üzrə orta məhsuldarlığın 0,7-0,8-dən aşağı olan təsərrüfatların subsidiyalaşdırılmasından imtina effektiv olar;
- aqrar sahibkarlığın inkişafını stimullaşdıran qiymət mexanizminin formalaşması üçün mövcud subsidiya mexanizmi əkin subsidiyasından məhsul subsidiyasına keçid üzrə təkmilləşdirilməlidir;
- kənd təsərrüfatı torpagı bazarında dinamizmi yüksəltmək –

masştab effekti əldə etmək və ya torpaqların iri sahibkar mülkiyyətində təmərküzləşməsinə stimul yaratmaq üçün təyinatı üzrə istifadə edilən kənd təsərrüfat torpaqları üçün vergi torpağın bazar qiymətinin 0,1%-i həddində, istifadə edilməyən torpaqlara 5%-i həddində, təyinatı dəyişdirilən torpaqlar üçün bazar dəyərinin 10%-i həddində müəyyənləşdirilməlidir;

- azad edilmiş ərazilərdə torpaq islahatının reallaşdırılması zamanı ayrılan torpaq payları üzrə dövlət alqısı – möhlətli satış mexanizmindən istifadə etməklə, sosial ədalətin qorunması ilə birgə iri təsərrüfatların yaradılmasına dəstək olmaq mümkündür;
- pərakəndə satışın təkmil təşkili və aqrar sahibkarların istehsal barədə qərarlarının əsaslı olmasına yardım edən qurumun - Kənd Təsərrüfatı Nazirliyinin tərkibində Qiymət İnformasiyası və Qiymətlərə Nəzarət Xidmətinin yaradılması məqsədəuyğundur.
- böyük şəhərlərdə aqrar satış köşkləri şəbəkəsinin - cüzi qiymətlərlə birbaşa istehsalçılara icarəyə verilən köşk şəbəkəsinin formalaşdırılması qiymət disparitetnin azalmasına ciddi təsir göstərə bilər;
- aqrar məhsullar üzrə icbarı sığorta sisteminin yaradilması, sığorta haqlarının 50%-nin dövlət büdcə vəsaitləri hesabına ödənilməsi nəzərdə tutulan məhsullar çeşidinə bəzi meyvə-tərəvəz və heyvandarlıq məhsulları növlərinin aid edilməsi, sığorta tariflərinin aşağı salınması, dövlətin fəal iştirakı ilə aqrar məhsullar üzrə Təkrar Sığorta Fondunun yaradılması məqsədəuyğundur.

**Tədqqiqatın praktik əhəmiyyəti.** Dissertasiya işinin nəticələri dövlət sahibkarlığı dəstəkləmə siyasətinin, aqrar qiymət siyasətinin və aqrar inkişaf siyasətinin formalaşmasında istifadə edilə bilər. Tədqiqat nəticələri həm də aqrar-sənaye müəssisələrinin idarə edilməsində və “İqtisadi nəzəriyyə”, “Qiymət və qiymətləndirmə”,”Qiymət siyasəti” fənlərinin tədrisində istifadə olunma üçün yararlıdır, mühazirələrin, dərs vəsaitlərinin, dərsliklərin hazırlanması üçün istifadə edilə bilər.

**Aprobasiya və tədqiqatın nəticələrinin tətbiqi**. Tədqiqat işinin əsas müddəaları, əldə olunan nəticələr və irəli sürülən təkliflər Azərbaycanda, Rusiyada və Türkiyədə keçirilmiş beynəlxalq elmi-praktik konfranslarda məruzə edilmişdir. Dissertasiya işi ilə bağlı 20-dən artıq elmi məqalə və tezis nəşr edilmişdir.

**İşin quruluşu**. Dissertasiya işi giriş (18331 işarə), 3 fəsil (I fəsil - 86565 işarə, II fəsil - 69478 işarə, III fəsil – 71205 işarə), nəticədən (16168 işarə) ibarət olub, ədəbiyyat siyahısı ilə birlikdə kompyuter yazısında 176 səhifə olmaqla (261747 işarə), özündə 30 cədvəli, 9 sxemi, 23 qrafiki əhatə edir.

## MÜNDƏRİCAT:


Giriş

**I fəsil. Sahibkarliğin inkişafinda qiymət mexanizmindən istifadə: nəzəri aspektləri**

1.1. Posttransformasiya mühitində sahibkarlığın inkişafının nəzəri-metodoloji əsasları

1.2. Aqrar sahibkarlığın inkişafı və qiymət mexanizmi: qarşılıqlı əlaqələr

1.3.Aqrar sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadənin beynəlxalq təcrübəsi

**II fəsil. Azərbaycanda aqrar sahibkarliğin inkişafinda qiymət mexanizmindən istifadənin müasir vəziyyəti**

2.1. Azərbaycanda aqrar sahibkarlığın inkişafının mövcud vəziyyətinin kompleks qiymətləndirilməsi

2.2. Aqrar sferada qiymətlərin dinamikasını şərtləndirən amillərin kompleks təhlili

2.3. Aqrar sferada mövcud qiymət formalaşma mexanizmi və sahibkarlığın inkişafı**Ошибка! Закладка не определена.**

**III fəsil. Aqrar sahibkarliğin inkişafi və qiymət mexanizminin təkmilləşdirilməsi istiqamətləri**

3.1.Kənd təsərrüfat məhsullarının qiymətinin formalaşması mexanizminin təkmilləşdirilməsi

3.2.Aqrar sektorda qiymət formalaşdıran dolayı faktorların sahibkarlığın inkişafına təsirinin optimallaşdırılması istiqamətləri

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

# TƏDQİQATIN QISA MƏZMUNU

## 1.Aqrar sahibkarlığın inkişafı və qiymət siyasəti:nəzəri aspektlər

İqtisadi fikir tarixinin sahibkarlıqla bağlı ən fundamental nəzəriyyəsində - Şumpeter nəzəriyyəsində sahibkarlıq mülkiyyət sahibindən fərqləndirilir və iqtisadi inkişafla birgə araşdırır. Şumpeter bildirir ki, hər hansı əmlaka mülkiyyət hüququ sahibkarlığın əhəmiyyətli əlaməti deyil. Şumpeterə görə əsas əlamət yeniləşmələrin reallaşdırılmasısdır: "*Bir funksiyası yeni kombinasiyaları həyata keçirmək olan subyektləri sahibkar kimi dərk edirik".*[5] Drukerə görə isə "*o, (sahibkarlıq) iqtisadiyyatın hüdudlarından kənarda qalaraq, iqtisadiyyata təsir edir, onu formalaşdırır*"[6].

Kənd təsərüfat sektorunda sahibkarlığın bu ümumi əlaməti bəzi spesifik cəhətlərlə tamamlanır və bir çox tədqiqatlarda qeyd olunur ki, istehsalın mövsümiliyi, istehsal prosesi müddətinin uzun olması, təbii-iqlim amilləri, o cümlədən qlobal istiləşmə ən spesifik xüsusiyyəti - aqrar sahibkarlığın bütövlükdə riskli fəaliyyət olmasını şərtləndirir. Aparılan hesablamalar XXI əsrin ikinci yarısında mövcud texnologiyalar və mövcud meyllər daxilində aqrar sferada məhsuldarlığın ciddi azalmasını proqnozlaşdırır.

**Cədvəl.1**

**Qlobal istiləşmənin kənd təsərrüfatındakı məhsuldarlığa təsiri %-lə**

| Ölkələr | Rikardo metoduna görə | Kənd təsərrüfat metoduna görə | $CO_2$ faktorunu nəzərə almaqla orta dəyişmə* |
|---|---|---|---|
| ABŞ | 5 | -16 | 8 |
| Hindistan | -49 | -27 | -29 |
| Çin | -4 | -13 | 7 |
| Meksika | -36 | -35 | -26 |
| Rüsiya | 0 | -15 | 6 |

*Mənbə: Уильям Р,Клайн.Глобальное потепление и сельское хозяйства.ст.25.el.resurs*

Beləliklə, risklərə və aqrar böhranların uzunmüddətliliyinə, aqrar bazarda qeyri-elastik tələbin mövcudluğuna görə aqrar sektor

---

[5]*Шумпетер Й.А. Теория экономического развития. /пер. с англ.- М.: Прогресс, 1982. с.170*

[6]*Друкер П.Ф. Рынок: как выйти в лидеры. Практика и принципы: /пер. с англ./ - М.:Book Chambler International,1992. с.157*

"*...ən çox dövlət tənzimlənməsinə məruz qalır..*"[7].

Bu cəhətlər özünü daha çox mühüm bir məqamda – qiymət disparitetində biruzə verir. Tədqiqatlar kənd təsərrüfatı müəssisələrinin kiçikliyini, yüksək riski və dövriyyə vəsaitlərinin istifadə müddətinin yuxarılığını, kənd təsərrüfatı istehsalının fasiləsiz xarakterini, aqrar istehsalçıların son istehlakçıya birbaşa çıxışının olmaması və buna görə də əlavə dəyərin bölgüsündə fəal iştirak edə bilməməsini, kənd təsərrüfatı məhsullarının sosial əhəmiyyətini qiymət disparitetinin əsas səbəbləri hesab edir[8].

Aqrar bazar qiymətlərinin tənzimlənməsi zərurəti həm də çox fundamental bir məsələ ilə - dövlət subsidiyaları ödəməyəndə, istehsalçılar fayda götürən zaman istehlakçılar, istehlakçılar fayda götürən zaman istehsalçılar zərər görməsi ilə bağlıdır. Bu vəziyyətdə isə qaliblər məğlubların itirdiyindən az qazanırlar. Yəni, bir qrupun mənfəəti digər qrupun itkilərindən az olur[9].

İqtisadi ədəbiyyatlarda qiymət disparitetinin səviyyəsinin müəyyən edilməsinin çoxsaylı metodları göstərilir və ayrı – ayrı məhsullar üzrə məhsul mübadiləsinin sabitliyi metodundan istifadə edilə bilər:

$$\dot{I}_{par} = \left(\frac{p_i^{kt1}}{p_k^{r1}}\right) \div \left(\frac{p_i^{kto}}{p_k^{ro}}\right) = 1$$

Burada: $\dot{I}_{par}$– paritet indeksi, $p_i^{kt1}$və $p_i^{kt0}$ - kənd təsərrüfatı məhsulunun baza və hesabat dövründəki qiyməti, $p_k^{r1}$ və $p_k^{r0}$ - aqrar istehsal resursunun baza və hesabat dövründəki qiymətidir.

Məlumdur ki, bütövlükdə kənd təsərrüfatı sferası üzrə qiymət proporsiyalarının dəyişmələrini müəyyənləşdirmək də idarəetmə qərarlarının qəbulu baxımından lazımlıdır. Qiymət paritetinin məcmu indeksi aşağıdakı kimi hesablana bilər:

---

[7] *ШаминА.Е. Государственное регулирование аграрного сектора за рубежом// «Вестник НГИЭИ» № 1 (1). Том 1. 2010. - с. 4-15*

[8] *Ползиков Д.А. Ценовые пропорции развития сельского хозяйства России в контексте отраслевой и макроэкономической политики. Автореферат диссертации на соискание ученой степени кандидата экономических наук*

[9] *Eric A. Monke, Scott R. Pearson, The Policy Analysis Matrix for Agricultural Development Stenford 1989 p.31.*

$$\dot{I}_{par} = \frac{i^{kt}}{i^{res}} = \frac{\frac{\sum p_i^{kt_1} q_i^{kt_0}}{\sum p_i^{kt_0} q_i^{kt_0}}}{\frac{\sum p_k^{res_1} q_k^{res_0}}{\sum p_k^{res_0} q_k^{res_0}}} = 1$$

Burada: $q^{kt}$ və $q^{res}$ - istehsal olunan və satılan kənd təsərrüfatı məhsulunun və istifadə edilən resursun həcmləridir.

Qiymət dispariteti nəticəsində itkilərin hesablanması isə aşağıdakı metodla müəyyən olunur:

$$Q = (\frac{p_k^{res1}}{p_j^{kt1}} - \frac{p_k^{res0}}{p_j^{kt0}}) p_j^{kt1} q_k^{res1}$$

Aydıındır ki, bu metod disparitet nəticəsində yol verilən itkilərin xərclər üzrə müəyyən edilməsini nəzərdə tutur və tədqiqatlarda gəlirlər üzrə itkiləri müəyyən edən metodlar təklif olunur.

Zənnimizcə, bu baxımdan daha məqsədəuyğun metod gəlirləri və xərcləri nəzərə alan üsuldur:

$$Q = \Delta x^{kt} - \Delta x^{res} = x^{kt}(I - \frac{I}{i^{kt}}) - x^{res}(I - \frac{I}{i^{res}})$$

Burada $x^{kt}$ və $\Delta x^{kt}$ - aqrar sahibkarlıq subyekti üzrə gəlir və baza dövrünə nisbətən gəlir artımı, $x^{res}$və $\Delta x^{res}$ - xərc və xərcin baza dövrünə nisbətən artımıdır.

Disparitetin hesablanmasında vacib məqam baza dövrünün düzgün müəyyən edilməsidir. Posttransformasiya regionunda baza dövrü axtarışı ümumiyyətlə, çətindir. Çıxış yolu ya resurs qiymətlərinin daha sıçrayışlı artdığı ili – məsələn, yanacaq qiymətlərinin və s. çox ciddi artırılması dövrlərini baza dövrü kimi göstərmək, yaxud şərti dünya qiymətləri sistemindən istifadə etməkdir.

Aqrar istehsalçılara dövlət dəstəyini xarakterizə edən göstəricilərə isə aşağıdakılar aiddir:

- MPS *(market prise support*)

$$MPS = \sum_{i=1}^{n} (p_i^d - p_i^w)\, Q_i^p$$

$p^b$- aqrar istehsalçının i növ məhsul üçün əldə etdiyi qiymət; $p_i^b$ - i növ məhsulun sərhəd (dünya) qiyməti; $Q_i^p$ - i nö$v$ məhsulun istehsal həcmi.

- PSE *(produser support estimate)*

$$PSE = MPS + \sum_{i=1}^{n} S_j$$

$S_j$ - aqrar sahibkara verilən j növ dövlət subsidiysı

- Istehsalçıların dəstəkləmməsinin nominal göstəricisi $NPC_p$ *(nominal protection cofficent)*

$$NPC_p = \frac{p_i^p + s_i}{p_i^b}$$

Məcmu yardım

$$TSE = PSE + \sum_{i=1}^{n} S_i + \sum_{i=1}^{n} TR + GSSE$$

BSE *(budget support estimate)*

$$BSE(\%) = \frac{\sum_{i=1}^{n} S_i + GSSE}{BS} \text{ və s.}$$

Aqrar sfera və aqrar sahibkarlığa dövlət dəstəyini daha kompleks dəyərləndirmək üçün öncə göstərdiyimiz PSE və CSE göstəricilərindən istifadə məqsədəuyğundur. Qeyd etməliyik ki, Komarovanın tədqiqatlarında metodlar natamam əks olunmuşdu və Dünya Bankının metodikasına görə PSE aşağıdakı kimi hesablanır:

$$PSE = {\{P_i^w + (S_i - t_i) - P_i^w * ER_r\}}\big/{P_i^w \times ER_r}$$

burada $S_i, t_i$ - xammala subsidiya və vasitəli vergilərdir.

**2. Aqrar sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadənin xarici təcrübələri.** İnkişafın əsas yollarından birinin «yaxşı olan» xarici təcrübədən istifadə etməkdir. Bu gün inkişaf etmiş aqrar sektora malik ölkə və regionların – xüsusilə ABŞ və AB-nin aqrar təsərrüfatçılıq praktikasının hansı real nəticələri var?

**Cədvəl 2**

**Kənd təsərrüfatı məhsullarının istehsalı(dənli bitkilər üzrə)**

| | Əkin sahəsi (mln.hektar) | Cəmi istehsal (mln.ton) | Hər hektardan məhsul (sentner) |
|---|---|---|---|
| Dünya | 724,2 | 2979 | 41,1 |
| Amerika | 126,3 | 1035 | 81,9 |
| Avropa | 121,1 | 543 | 44,8 |
| Asiya | 334,7 | 1434 | 42,8 |
| Çin | 97,9 | 615 | 62,8 |
| ABŞ | 52,5 | 422 | 80,8 |
| Azərbaycan | 1,0 | 3,3 | 33 |

*Mənbə: World Food and Agrıculture 2020 statistical yearbook. P150, tab 17 və p306 tab 49 məlumatları əsasında hazırlanıb*

Ümumiyyətlə AB və ABŞ kənd təsərrüfat siyasətindəki daimi yeniləşmələrə baxmayaraq «*...inkişaf etmiş ölkələrin aqrar siyasətinin əsas prinsipi qiymət paritetinin təminatı olaraq qalır*»[10]. Qərb təcrübəsində tətbiq olunan mexanizmlər barədə ətraflı məlumatlar vermək üçün Sidorinin tədqiqatına istinad etmək mümkündür[11].

**Cədvəl 3**
**ABŞ və AB-də qiymət disparitetinin aradan qaldırılması mexanizmləri**

<table>
<tr><th>Tədbirlər</th><th>AB</th><th>ABŞ</th></tr>
<tr><td>Sahibkar gəlirlərinin dəstəklənməsi</td><td>Birbaşa ödənişlər<br>Təbii fəlakət zərərləri üzrə ödənişlər</td><td>Birbaşa ödənişlər<br>Təbii fəlakət zərərləri üzrə ödənişlər<br>Aqrar istehsalın yenidən təşkili və s. üzrə ödənişlər</td></tr>
<tr><td>Idxalın məhdudlaşdırılması</td><td>Əsas ərzaq məhsullarına idxal tarifi idxal kvotaları (şəkər, süd və s.)</td><td>Taxıldan başqa digər məhsullara idxal rüsumu<br>ət və südə idxal kvotası və s.</td></tr>
<tr><td>Sahibkarların qiymət üzrə dəstəklənməsi</td><td>Indikativ qiymətlər:<br>1.təminatlı –yüksək<br>2.müdaxilə qiymətləri<br>3.idxalın həddi –minimal qiymət</td><td>Indikativ qiymətlər:<br>1.təminatlı –daxili bazarın minimal qiymətləri<br>2.müdaxilə - təminatlı və ya girov qiymətləri<br>3.birdəfəlik ödənişlər</td></tr>
<tr><td rowspan="3">Istehsal həcminin ixtisarı</td><td colspan="2">Izafi məhsul istehsalına qarşı tədbirlər</td></tr>
<tr><td colspan="2">Torpaqların dövriyyədən çıxarılmasının stimullaşdırılması</td></tr>
<tr><td>Fermerlərin kənd təsərrüfat istehsalından çıxarılması proqramı</td><td>Torpaqların konserversiyası Proqramı</td></tr>
<tr><td>Daxili tələbatın stimullaşdırılması</td><td>----</td><td>Aztəminatlı vətəndaşlara ərzaq yardımının büdcədən maliyyələşməsi<br>Məktəb səhər yeməyi proqramı</td></tr>
</table>

Ümumiyyətlə, Qərbdə aqrar sektora dövlət dəstəyinin həcmi yetərincə yüksək olaraq qalır. Aşağıdakı cədvəlin göstəricilərindən də bu cəhət aşkar seçilir.

---

[10]*Dianna Katz.Farm Bill 2012: Agriculture Policy Ripe for Reform*

[11] *Сидорин А.А. Перспективы адаптации в России зарубежного опыта государственной поддержки доходов аграрных товаропроизводителей в условиях неэквивалентного межотраслевого обмена // Управление общественными и экономическими системами 2012 № 2 ФГБОУ ВПО «Орловский государственный аграрный университет»,*

**Cədvəl 4**

**Kənd təsərrüfatı sferasına ümumi dövlət yardımı**

| | 1986 | 1990 | 2000 | 2010 | 2011 | 2014 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| ABŞ mld.dollar | 61,53 | 60,69 | 92,40 | 81,7 | 83,8 | 95,98 | 100,083 |
| ÜDM-ə nisbətən %-lə | 1,39 | 1,06 | 0,93 | 0,63 | 0,57 | 0,5 | 0,46 |
| AB mld.dollar | 96,82 | 128,48 | 97,76 | 118,33 | 119,99 | 125,92 | 113,321 |
| ÜDM-ə %-lə | 2,75 | 2,05 | 1,21 | 0,73 | 0,68 | 0,8 | 0,7 |

*Mənbə: Producer and Consumer Support Estimates OECD Agriculture 2020*

Son dövrlərdə - Doxa sazişindən sonra aqrar sahibkarlığın dəstəklənməsi tədbirləri belə birbaşa ödənişlər də daxil olmaqla, 3 qrupda təsnifləşdirilir:

«Mavi səbət» tədbirləri – istehsalın məhdudlaşdırılması proqramları üzrə birbaşa ödənişlər və s.;

«Kəhrəba səbət» tədbirləri –daxili dəstək tədbirlər: borcların silinməsi, bazarın tənzimlənməsi /qiymətlərə birbaşa müdaxilə/, məhsulun sığortası, istehsala dotasiyalar və s. «təhrifedici» tədbirlər;

«Yaşıl səbət» tədbirləri – istehsala az «təhrifedici» təsir göstərən tədbirlər: ekoloji proqramlar, infrastruktur proqramlar və s.

Beləliklə, qlobal ərzaq təhlükəsizliyində çox mühüm rol oynayan ABŞ və Avropa Birliyinin aqrar sferanın və aqrar sahibkarlığın inkişafında tətbiq etdiyi siyasət – xüsusilə qiymət siyasəti yaxın əsrlərin ən parlaq təcrübəsi hesab edilə bilər.

**3.Azərbaycanda aqrar sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadənin mövcud vəziyyəti**

Azərbaycan tarixinin XX əsrdəki ən fundamental islahatı - H.Əliyevin radikal aqrar islahatı ötən müddət ərzində aqrar sferanın və sahibkarlığın inkişafına möhkəm zəmin yaradıb. H.Əliyev çox böyük müdrikliklə izah edirdi və bütün tarix də bunu göstərdi ki, torpaqlardan yalnız o halda səmərəli istifadə etmək olar ki, bu torpaq kiminsə mülkü olsun, o buna şəxsi mülk kimi baxsın və ondan çox mənfəət götürməyə çalışsın.[12]

Ancaq ən fundamental islahatlar belə bütün problemləri həll etmir və mövcud problemlərdən biri Azərbaycanda kənd təsərrüfatı istehsalının 95%-ni təxminən hər təsərrüfata 1,5-2 hektar torpağı olan ailə

[12] *H.Əliyevin 1996-cı il iyunun 24-də aqrar islahatlara həsr olunmuş müşavirədə nitqi.*

kəndli təsərrüfatlarının payına düşməsidir..

Aqrar sferanın və aqrar sahibkarlığın inkişafının qiymət aspektinin mühüm prolemlərindən biri də mövcud aqrar məhsullar ticarəti sistemidir. V.Nazarenko qeyd edir ki, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının satışında pərakəndə satış əlavələri 20-40% təşkil edir və Rusiyada bu göstərici 60-80%-ə çatır[13]. Aşağıdakı qrafik belə bir spesifikliyin Azərbaycan aqrar bazarında da mövcudluğunu təsdiq edir.




**Qrafik 1. Kənd təsərrüfatında istehsalçı və satış qiymətləri indeksi (2010 = 100 %) faizlə**

*Mənbə: www.stat.gov.az məlumatları əsasında hazırlanıb*

Bu və digər səbəblərdən aqrar bazarda qiymət dispariteti dənli bitkilər üzrə 2010-2019-cu illərdə əsasən 0,64-0,96 arasında dəyişir(2005=100%). Heyvandarlıqda da qiymət dispariteti 0,88-0,77 arasında dəyişir və deməli, fəal dövlət dəstəyi zəruridir.

Ancaq ölkədə kənd təsərrüfatı məhsullarının qiymətinə birbaşa təsir edən rıçaqların qismən formalaşdığını, dolayı yollardan – xüsusilə, aqrar məhsul istehsalı məsrəflərinə təsir edən tədbirlərdən fəal istifadə olunduğunu iddia etmək olar. Bu tip tədbirlərdən 2002-ci ildən başlayaraq istifadə edilir və 27 iyun 2019-cu ildə təsdiq edilən

---

[13] *Назаренко В. "Секреты" успеха аграрной политики Европейского Союза / Виктор Назаренко // Современная Европа. - 2005. - N 3. - С. 46*

aqrar sahənin yeni subsidiya mexanizmini bu baxımdan fundamental bir addım saymaq olar. Çünki yeni "Qaydalar"la həm subsidiya verilən məhsulların əhatə dairəsi genişlənib, subsidiya verilməsi prosesində şəffaflıq yüksəldilib və həm də tədarük qiymətlər sisteminin formalaşması baxımından fundamental bir addım atılıb. Aqrar Subsidiya Şurasının qərarına görə 2020-ci ildə emal müəssisələrinə təhvil verilən pambığın hər tonuna 100 manat, quru tütünün hər tonuna 50 manat, yaş tütünün hər tonuna 5 manat, şəkər çuğundurunun hər tonuna 4 manat subsidiya ödənilməsi və s. nəzərdə tutuldu. Ancaq bəzi çatışmazlıqlar da mövcuddur. Bir tərəfdən "subsidiya siyahısının" nar, əzgil, əncir bağlarına qədər genişləndirilməsi, digər tərəfdən subsidiya mexanizmində məhsul deyil, əkin subsidiyalarının daha üstün olması – yəni dövlət dəstəyinin təminatlı və ya tədarük qiymətlər sistemi vasitəsi ilə istehsal həcminə ünvanlanmaması və əkin subsidiyalarının xərc istiqamətlərinin öncədən detallı – bəzən də konkret gübrə satıcısı və s. qədər müəyyənləşməsi yeni və təkmilləşdirilmiş subsidiya mexanizminin kəsir cəhətləri hesab edilə bilər.

Bu tədbirlər - qiymət mexanizminə birbaşa və dolayı müdaxilələrlə aqrar sahibkarlığın dövlət dəstəklənməsi səviyyəsini ciddi yüksəldib. 2010-2020-ci illərdə kənd təsərrüfatına dövlət dəstəyi, ÜD – ümümi dəstəklənməsi, MD – məcmu dəstəklənməsi və S – subsidiya həcmi aşağıdakı kimi olub.




**Qrafik 2.Aqrar sektorun dövlət dəstəklənməsi səviyyəsi.mln AZN**

*Mənbə:maliyye.qov.az və Kənd Təsərrüfat Nazirliyinin məlumatları*

Doğrudur, dəstəyin belə güclənməsi bəzi hallarda yetərli hesab

edilə bilməz və 2017-2020-ci illərdə buğda istehsalında PSE (producer support estimated) göstəricisi (-256) – (-346) mln.manat ətrafında dəyişib.

**4.Aqrar sahibkarlığın inkişafını stimullaşdıran qiymət siyasətinin formalaşması istiqamətləri**

Şubhəsiz ki, kənd təsərrüfatı qiymət siyasətində əhəmiyyətli məsələ "*təminatlı qiymətlərin səviyyəsinin müəyyənləşməsidir*"[14] və təminatlı və tədarük qiymətlərinin düzgün tətbiqinin effektivliyi Azərbaycan nümunəsində də təsdiqini tapır. Pambıqçılıqda istifadə edilən məhsul subsidiyası – mahiyyətcə tədarük qiymətlərinin tətbiqi effektiv nəticələrə gətirib.




**Qrafik 3. Subsidiyalar və istehsal artımı**

*Mənbə: stat.qov.az məlumatları əsasında hazırlanıb*

Beləliklə, 2015–2020-ci illərdə əkin subsidiyaları ilə əhatə edilən buğda istehsalında artım 108%-ə bərabər olub. Pambıqçılığa məhsul subsidiyası verilməsi isə 2015–2020-ci illərdə istehsal artımını 955%-ə yüksəldib. Qiymət mexanizminin təsir gücü aşkardır.

[14]*Сильванович В.И. Ценовое регулирование в аграрном секторе экономики: современное состояние и направления развития// Веснiк БДУ. Сер. 3. 2009. № 3 ст.78-82.*

Təminatlı qiymətlərin dürüst müəyyənləşməsi üçün yəqin ki, öncə müxtəlif məhsullar və müxtəlif regionlar üzrə məhsul vahidinin maya dəyərini(hər il) müəyyənləşdirmək, maya dəyərinə iqtisadiyyat üzrə orta rentabellik səviyyəsini şamil etməklə, təminatlı qiymət səviyyəsini müəyyənləşdirmək lazımdır.

"Kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Proqramı"nın qəbulu aqrar qiymət mexanizminin təkmilləşməsinə dolayı və effektiv təsir göstərən bir mexanizmin yaradılmasına imkan verir. Ancaq aydındır ki, AB ölkələrinin normativlərini mexaniki olaraq, "kooperativ hərəkatının təşəkkül mərhələsindəki ölkələrə köçürmək məqsədəuyğun deyil". Öz-özlüyündə aydındır ki, xidmət kooperativlərinin formalaşmasının ilkin mərhələsində dövlətin fəal dəstəyinə ehtiyac var. Yəqin ki, dövlət proqramı üzrə müxtəlif iqtisadi rayonlarda istehsal gücünə, ixtisaslaşmasına və s. amillərə müvafiq olaraq, 3-5 xidmət kooperativinin yaradılması, bu kooperativlər üçün infrastrukturun yaradılmasında dövlətin həm əvəzsiz vəsaitlər – məsələn, ümumi maliyyənin 50%-i həcmində, həm güzəştli kreditlər ayırmaqla iştirak etməsi təklifi effektiv nəticələrə səbəb olar.

Kənd təsərrüfatı məhsullarının qiymət mexanizminin təkmilləşdirilməsinə həm də məhsuldarlıq təsir edir və sürətli ucuzlaşmanın yolu məhsuldarlıq yüksəlişindən keçir. Xanqın tədqiqatına görə innovasiyaların tətbiqi nəticəsində 1975-1997-ci illərdə ərzaq sektorunda orta illik artım 1,88% olub. Məcmu məhsul artımı isə 3,58 təşkil edib. Buna görə də bütövlükdə dünyada aqrar elmi-tədqiqatlara yetərincə resurs sərf olunur.

Azərbaycanda bu baxımdan vəziyyətin qənaətbəxş olduğunu göstərmək olmaz və aşağıdakı qrafikdən də bu cəhət sezilir. Üstəlik problem dövlət maliyyəsi hesabına həll edilə bilməz. Problemin həlli genetika, biotexnologiya, ekologiya və s. istiqamətlər üzrə innovasiyalar hazırlayan firmaların formalaşmasını tələb edir və Azərbaycanın mövcud aqrar elmi-tədqiqat sektoru daxilində - müxtəlif təcrübə-sınaq mərkəzləri, toxumçuluq və digər ixtisaslaşmış stansiyalar və s. bazasında yeni özəl innovasiya kompaniyaların yaradılması mümkündür. Belə bir islahat ölkədə aparılan aqrar tədqiqatların nəticələrinin sürətlə kommersiyalaşdırılmasına, idxal

texnologiyaların yerli mühitə operativ uyğunlaşdırılmasına çox müsbət təsir göstərər.




**Qrafik4. Dünya üzrə innovasiya xərcləri( mln.dollar)**

*Mənbə: https://read.oecd-ilibrary.org/agriculture-and-food/agricultural-policy-monitoring-and-evaluation-2018 və stat.qov.az*

Bəllidir ki, masştab effekti – "müəssisənin həcminin artımında müəssisənin fəaliyyətinin effektivliyinin yüksəlməsi" yalnız və yalnız optimal həcm daxilində reallaşır. Belarus iqtisadçısı Miloşevskayanın araşdırmalarına görə "*5750 hektar torpağa malik təsərrüfatlarda ən aşağı maya dəyəri, 5900 hektara malik təsərrüfatlarda isə ən yüksək mənfəət əldə olunur*[15]. Əlbəttə ki, Belarus üçün optimal olan həcm - 5750-5900 hektar hər bir ölkə üçün etalon deyil, ancaq hər bir ölkə üçün müsbət masştab effekti – uzunmüddətli dövrdə müəssisənin həcminin artımına müvafiq olaraq məhsul vahidinə məsrəflərin aşağı düşməsi real

---

[15] *Милощевская Е.В. Эффект масштаба производства и совершенствование структуры отрасли. Автореферат диссертации насоискание ученой степени кандидата экономических наук по специальности 08.00.01 — экономическая теория Минск, 2013, с.29*

bir vəziyyətdir.

Bu baxımdan növbəti bir sual yaranır: Azərbaycanda kənd təsərrüfatı subyektlırinin iriləşməsinə necə nail olmalı? Qeyd olunmalıdır ki, artıq Azərbaycan hökuməti aqrar sektorda iri təsərrüfatların yaradılması istiqamətində fəaliyyət aparır və 2011-ci ildə prezident İ.Əliyev demişdi ki, "*...böyük fermer təsərrüfatları infrastrukturu yaradılsın və bu işlərə böyük torpaq sahələri cəlb edilsin*".

Xirda təsərrüfatların bazasında iri təsərrüfatların yaranmasını necə təmin etməli? Təsərrüfatların təmərküzləşməsi üçün ən yararlı yol aqrar torpaq bazarında dinamizmin artırılmasını stimullaşdırmaqdır. Bu baxımdan torpaq vergisinin təkmilləşdirilməsi üzrə aşağıdakı tədbirlər səmərəli ola bilər:

▪ Vergi bazası olaraq bütün torpaqlar üçün torpağın bazar qiyməti əsas götürülsün;

▪ Təyinatı üzrə istifadə olunan kənd təsərrüfat torpaqlarına torpaq vergisi bazar dəyərinin 0,1%-i həddində müəyyənləşdirilsin;

▪ İstifadəsiz kənd təsərrüfat torpaqları üçün bazar dəyərinin 5 %-i və ya daha yuxarı həddində vergi tətbiq olunsun;

▪ Təyinat dəyişdirilən kənd təsərrüfat torpaqlarının sahiblərinə torpağın bazar dəyərinin 10% həcmində sanksiyalar tətbiq olunsun və inzibati yollarla torpağın "qanuni təyinatı üzrə istifadəsi təmin edilsin;

▪ Aqrar məhsulların satış sisteminin təkmilləşdirilməsi üçün kənd təsərrüfatı məhsullarının qiyməti barədə informasiyaların operativ toplanma, emal və paylanması xüsusilə əhəmiyyətli hesab edilə bilər.

Tədqiqatlarda da düzgün olaraq göstərilir ki, "*...əhalinin bazar qiymətlərinin konyukturası barədə məlumatlılıq səviyyəsi yüksəldikcə, topdansatış qiymətlərinin strukturunda istehsalçıların payının artımı müşayiət olunur*"[16]. İnformasiyalarla təminatın yüksək səviyyəsi həm də dövlət inzibati tədbirlərinin görülməsi üçün əsaslar yaradır və inkişaf etmiş ölkələrin təcrübəsində də belə bir yanaşma mövcuddur. Belə ki, ABŞ Kənd Təsərrüfatı Nazirliyinin tərkibindəki Bazar Yenilikləri Xidməti mövcuddur. Bu xidmət hər ay kənd təsərrüfatı məhsullarının bazar qiymətləri barədə məlumatları toplayıb, nazirlik və ictimaiyyətə təqdim edir.

---

[16]*Hökumətin aqrar siyasətinin effektivliyinin qiymətləndirilməsi üzrə tədqiqat. İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi. Bakı 2011*

Kənd təsərrüfatı məhsullarının təkmil satış sisteminin formalaşması üçün Kənd Təsərrüfatı Nazirliyi tərkibində Qiymət İnformasiyası və Qiymətlərə Nəzarət Xidməti yaradılması, kənd təsərrüfatı məhsulları bazarın bəzi həlqələrində dövlət tərəfindən qiymətlərin tənzimlənməsinin həyata keçirilməsi, soyuducu anbarlarda məhsulların saxlanılmasına, yarmarkalarda, kənd təsərrüfatı məhsullarının topdansatış mərkəzlərində icarə və xidmət haqlarının maksimum məbləğinin dövlət tərəfindən müəyyən edilməsi, aqrar istehsalçıların son istehlakçılara birbaşa çıxış imkanlarını artırmaq üçün böyük sahələrdə ərazini bütövlükdə əhatə edə bilən aqrar satış köşkləri şəbəkəsinin yaradılması məqsədəuyğun olar.

Aqrar sektorun uzunmüddətli böhrana yuvarlanmasını əngəlləmək üçün ən effektiv mexanizm sığorta sisteminin formalaşmasıdır və bəllidir ki, "*sistem riski kənd təsərrüfatında özəl sığorta bazarının inkişafının ən ciddi maneəsidir*"[17]. Tədqiqatçıların böyük əksəriyyətinin rəyinə görə, dövlət dəstəyi olmadan sistem riskini nə sığorta, nə də kapital bazarı adekvat sığortalaya bilməz.

ABŞ-da 1939-cu ildən məhsulun sığortası üzrə dövlət korporasiyası yaradılıb və bu proqramda iştirak edən fermerin məhsul itkisinin 50%, qiymət dəyişmələrindən dəyən zərərin isə 55 % ödənilir. Proqramda iştirak hər bir məhsul növü üzrə təxminən 100 dollar miqdarında ödəniş tələb edir.

Aqrar sığorta sisteminin yaradılması baxımından yəqin ki, sığorta haqqının 50 %-i dövlət büdcə vəsaiti hesabına ödənilən məhsulların çeşidinə meyvə-tərəvəzin bir çox növlərinin, heyvanlar və ev quşlarının da əlavə edilməsi, beynəlxalq bazarlarda təkrar sığorta işinin reallaşdırılmasına cəhdlə birgə ölkədə aqrar məhsullar üzrə Təkrar Sığorta Fondunun yaradılması effektiv olar.

Aqrar istehsalçıların kredit əldə etmək imkanları da qiymət mexanizminə təsir göstərən dolayı amillərdəndir və inkişaf etmiş ölkələrdə dövlət aqrar kreditlərdən istifadəni stimullaşdırmaq üçün müxtəlif mexanizmlərdən istifadə edir. Cədvəl göstəriciləri bu barədə ətraflı məlumat verir.

---

[17]*Major trends and policies in food and agriculture.*

**Cədvəl 5**

**Aqrar kreditlərə dövlət dəstəyi, %-lə**

| | Faiz ödənişlərinin subsidiyalaşdırılması (məcmu ödənişlərə) | Kreditlərə təminat (məcmu kreditə) | İnvestisiya güzəşti (investisiya həcminin müəyyən hissəsinə subsidiya) |
|---|---|---|---|
| Finlandiya | 40 | - | 10 |
| Niderland | - | 25 | 75 |
| AFR | 30 | 60 | 10 |
| Polşa | 100 | 0 | 0 |

*Mənbə: Faktor market table 2*

Belə mexanizmlərin Azərbaycan aqrar kredit bazarında istifadəsi şübhəsiz ki, lazımlıdır və effektiv nəticələrə səbəb olar. Ancaq kreditləri əldə etmək imkanları hətta bu mexanizmlərlə də tam reallaşmır. Bu imkanların yüksəlməsi kreditlərin ucuzluğu, kreditləşməyə dövlət dəstəyi ilə birgə vacib bir elementin – iqtisadi ədəbiyyatlarda loan-to-value(ltv) adlanan elementin təkmilləşdirilməsini tələb edir. Kredit həcminin aktivin dəyəri nisbətini – yəni alınan kredit müqabilində girov qoyulan aktivin dəyərinin nisbətini xarakterizə edən LTV göstəricisi əslində Azərbaycan kredit bazarının ən böyük problemlərindəndir. Riskləri həddən ziyadə minimallaşdırmağa çalışan Azərbacan bank sistemində 1 mln.manatlıq kredit üçün adətən, 1,5-2,0 mln.manat əmlak girovu tələb olunur. Yəni, adi halda LTV 30-50 % arasında dəyişir və üstəlik regionlardakı əmlaka, o cümlədən, torpağa bir aktiv kimi maraq göstərilmir. Inkişaf etmiş ölkələrdə vəziyyət isə aşağıdakı kimidir:

**Cədvəl 6.**

**Aqrar kreditləşmədə LTV göstəricisi**

| Ölkələr | Kommersiya bankları | İpoteka təşkilatları | Aqrar kooperativ banklar | Dövlət kredit təşkilatları |
|---|---|---|---|---|
| İsveç | 75 | - | 75 | - |
| Finlandiya | 60 | 60 | 60 | - |
| Niderland | 100 | - | 100 | - |
| Böyük Britaniya | 75 | 70 | - | - |

*Mənbə: Factor market table 16*

**5.Aqroparkların yaradılması, azad edilmiş ərazilərdə aqrar sektorun bərpası və aqrar sahibkarlıq**

Ölkə aqrar sferasında son illərdə təşəkkül tapan bir yenilik də aqrar inkişaf və aqrar qiymət mexanizminin təkmilləşməsinə çox pozitiv təsir göstərərmək potensialına malikdir. Son illər hökümət nəzərə alıb ki, yeni - 4-cü texnoloji inqilab mərhələsində davamlı inkişaf əsasında ərzaq təhlükəsizliyini təmin etmək bir qədər də geniş müstəvidə - klaster müstəvisində həll edilməlidir. Buna görə də Prezidentin 26 aprel, 2014-cü il fərmanında aqrar klasterlərin yaradılmasına "yaşıl işıq" yandırıldı. Həmin il Cənubi Qafqazın ilk aqroparkının - "Şəmkir Aqroparkı"nın təməli qoyuldu və 2017-ci ildə bu parkın Logistika Mərkəzi fəaliyyətə başladı. Yəni smart texnologiyalar etapında – kənd təsərrüfatında sensor texnologiyaların, proqram sistemlərinin, PUA-ların, robotların data analitikanın gerçəklik olduğu etapda kənd təsərrüfatının tərəqqisi üçün tədqiqat, istehsal, loqistik, maliyyə və s. elementlərin uzlaşması və vahid hədəf ətrafında cəmlənməsi tələb olunur və hökümət aqrar islahatları məhz bu istiqamətə fokuslandırır. Aqrar sferanın yeni drayverinin aqroparklar olacağı şübhə doğurmur. Belə ki, həmin vaxt – 2017-ci ilə yaradılması nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq fəaliyyətdədir və Azərbaycan aqrar sektorunda klasterləşmənin ən fərqli xüsusiyyətlərindən başlıcası prosesə aktiv dövlət dəstəyidir. Belə ki, 2018-ci ildə fəaliyyətə başlayan Goranboy aqroparkına birbaşa dövlət sərmayəsi – müasir infrastrukturun yaradılması və s. məsrəflər 35 mln.manat, bu parka özəl sərmayələr isə 30 mln. manat təşkil edib.[18] Aqroparklarda bir pəncərə sisteminin tətbiqi – gömrük rəsmiləşdirilməsi, bank və maliyyə xidmətlərinin təqdim edilməsi, fitosanitar və mənşə sertifikatlarının verilməsinin aqroparklarda təşkili isə dovlət dəstəyinin fərqli, ancaq əhəmiyyətsiz olmayan vektorudur.

Azərbaycanda reallaşan aqroparkların inkişafı siyasətinin əhəmiyyətli və zənnimizcə, ölkənin ərzaq təhlükəsizliyi baxımından daha dolğun özəlliyi aqrar klasterləşmənin daxili resurslar hesabına gerçəkləşdirilməsidir. Bir sıra postsovet ölkələri ilə müqayisələr bu iddiaları təsdiq edir. Belə ki, Avrasiya İqtisadi Komissiyasının araşdırmalarına görə bu təşkilata daxil olan postsovet ölkələrində aqroparkların yaradılmasında Çin dominantlıq edir. Doğrudan da bu zonada bir sıra aqroparklar Çin sərmayəsi hesabına yaradılıb və

---

[18] *marja.az*

yaradılacaq. Məsələn, 2016-2019-cu illərdə nəhəng kənd təsıərrüfatı potensialına və o cümlədən, daxili maliyyə resurslarına malik olan və 2019-cu ilin əvvəlinə cəmi 24 aqroparkin fəaliyyət göstərdiyi Rusiyada Çinin 10 mld.rubl sərmayəsi hesabına "Çuvaş Sı Çuan" aqroparkı, Belarusda Çinlə birgə 733 mln.dollar investisiya "Biotexnoloji" park yaradılması planlaşdırılırdı. Çin korporasiyalarından biri 100 mln.dollar sərmayə hesabına Qırğızstanda "Asiya ulduzları" aqroparkını yaratmağı hədəfləmişdi. 2019-cu ildə Özbəkistan Çinin «Join Hope Seeds Co.,LTD» korporasiyası ilə multufunksional rəqəmsal aqroparkın yaradılması barədə saziş inzalamışdı[19]. Şubhəsiz ki, Azərbaycanda kənd təsərrüfatının klasterləşmə siyasətinin "müstəqilliyini" birmənalı oıaraq böyük bir uğur hesab etmək yanlışlıq olardı və əlbəttə ki, istənilən sektorun, o cümlədən, aqrar sferanın innovativ əsaslı inkişafında xarici sərmayələrin rolu böyükdür.

Ancaq bu gün üçün ölkə kənd təsərrüfat siyasətinin təkzibedilməz bir gerçəkliyi var. Artıq aqrar klasterləşmə siyasəti – elmi – texnoloji əsaslı siyasət bu sferada dövlət fəaliyyətinin prioritet vektorudur və cəmi bir iki il öncə ölkədə 1,4 milyard manat sərmayə ilə 45 aqropark formalaşdırmaq nəzərdə tutulurdusa, bu gün 32 rayonu əhatə edən 51 aqroparkın formalaşdırılması, onlara 240 min hektar torpağın ayrılması, bu işlər üçün 2,1 milyard manat xərclənməsi nəzərdə tutulur. Bu gün fəaliyyətdə olan 43 aqroparkdan 23-nə dövlət 173 milyon manat güzəştli kredit verib. Aqroparklara dövlət himayəsini təsdiqləyən digər faktları da - 27 aqroparka 1 mlrd. manat investisiya təşviqi sənədi, 25 aqroparka texnika və texnoloji avadanlıqlar idxalı üzrə təsdiqedici sənədlər verilməsi və s. sadalamaq olar[20]. Ancaq bu və digər faktlar öz – özlüyündə əsas bir məqamı aydınlaşdırmır. Buna görə də bütün bu dövlət dəstəyini, yaxud verilən güzəştlərin motivi də – daha döğrusu, aqrar klasterləşmə siyasətinin özəl mahiyyəti də açıqlanmalıdır. Şübhəsiz ki, bu məsələ bəzən irəli sürülən iddialarla – yeni iş yerlərinin yaradılması ilə əlaqəli deyil və bütövlükdə yaradılacaq aqroparklar hətta 50 min yeni iş yeri vəd etmir. Əlbəttə ki, əmək ehtiyatlarının 1 faizi ətrafında iş yeri vəd edən bir istiqamət üzrə

[19] *indparks.ru*
[20] *http://www.maliyye.gov.az*

milyardlarla manat vəsait xərclənməsi tam yanlışlıq hesab edilə bilər, ancaq hökumət yanlış addım atmır. Çünki bütövlükdə klasterləşmə ideyası da – cəmiyyətin malik olduğu resurs və bilgiləri cəmləməyi və ən önəmli istiqamətlərə yönəltməyi nəzərdə tutan ideya da, o cümlədən aqrar klasterləşmə ideyası da – aqroparkların təşəkkülü ilə öz təsdiqini tapan ideya da müstəsna vacib bir məqsədin – davamlı inkişaf əsaslı effektiv iqtisadiyyatın formalaşmasının gerçəkləşdirilməsinə yönəlib. Ölkədə reallaşdırılan aqroparkların inkişaf siyasəti də bu motivdən qaynaqlanır və bəzi göstəricilərin müqayisəsi də bu cəhəti təsdiqləyir. Təsdiqlənir ki, aqroparklar ənənəvi təsərrüfat subyektləri ilə müqayisədə - istər xırda ailə təsərrüfatları, istərsə də iri fermer təsərrüfatları ilə müqayisədə daha yüksək məhsuldarlıq əldə edə bilirlər və sərhədlərimizin hüdüdsuz olmaması baxımından məhz bu müasir sahibkarlığın – klasterləşməni aparan sahibkarlığın üstün dəstəklənməsi lazımlıdır və aşağıdakı qrafikdən də bu cəhət sezilir.




**Qrafik 5. Aqroparklarda və ümumi kənd təsərrüfatında bəzi məhsullar üzrə istehsal və məşğulluq,2021-ci il**

*Mənbə:stat.qov.az və marya.az*

Qrafik göstəriciləri aqrar biznesin yeni strukturlarının gücünü – iqrisadi effektivliyini tam aşkarlayır. Belə ki, aqrar sferada məşgulluğun cəmi 0,3 faiz payına malik olan aqroparklar ölkədə buğda istehsalında 7,3, qarğıdalı istehsalında 32,5, arpa istehsalında 0,6,

şəkər çuğunduru istehsalında 66, pambıq istehsalında 41,4 faiz paya malik olub. Bu strukturların effektivliyi yəqin ki, şübhə doğurmur.

Ancaq aqrar klasterləşmə siyasətinin zənginləşdirilməsinə ehtiyac var. Birinci nəzərə alınmalı məqam budur ki, aqrar parkların yaradılması başlıca bir xəttə - smart kənd təsərrüfatının təşəkkülü xəttinə tabe edilməlidir. Bu baxımdan bəzi anlayışların və cəhətlərin mahiyyətinin dürüst dərk edilməsi gərəklidir.

Öncə aqroparkların mahiyyətini aydınlaşdıraq. Tədqiqatlarda "aqrar və qeyri – aqrar funksiyaların ərazi üzrə təmərküzləşdirilməsi kimi" xarakterizə edilən aqroparkların beş mühüm funksiyası da göstərilir. Qeyd edilir ki, aqroparklar vahid zəncir üzrə fəaliyyət göstərən subyektlərin tullantılarından səmərəli istifadəyə - məsələn, heyvandarlıq kompleksi üzrə tullantının istixanalarda istifadəsi, ərazi üzrə təmərküzləşmə ilə torpaq resurslarıma qənaətə, effektiv loqistika və veterinar, fitosanitar risklərin azalmasına, müxtəlif sektorların innovativ sahibkatlarının faydalı əməkdaşlığına və istehsal və marketinq proseslərinin şəffaflığına şərait yaradır. Yəni aqroparklar təkcə yüksək məhsuldarlıq üçün deyil, həm də qənaətli texnologiyalardan istifadə, keyfiyyətli ərzaq təminatı, innovasiya proseslərinin dinamizmi və s. üçün yaradılır. Xarici aqropark nümunələri də bu qurumları həm çoxfünksiyalı, çoxtərəfdaşlı olduğunu aşkara çıxarır. Məsələn, 2012-ci ildə Niderlandda yaradılan "Aqriport" klasterı təkcə Avropanın ən böyük pomidor istehalçısı kimi fəaliyyət göstərmir. Aqropark həm də smart texnologiyalardan – İoT -dan istifadə, termik qurğuların yardımı ilə istixanalarda enerji istehsalı və s. ilə məşğul olur. Ümumiyyətlə, smart kənd təsərrüfat bazarının 2020-ci ildəki həcmi 26,6 mld. dollara bərabər olub və 2028-ci ildə 55 mld.dollara bərabərləşəcəyi proqnozlaşdırılır[21]. Bu məlumatlardan da bəlli olur ki, by gün aqroparkı smart aqrar konsepsiyasına -"kənd təsərrüfatı məhsullarının istehsalı prosesini optimallaşdırmaq və bu proseslərə monitorinq üçün rəqəmsal metodlardan istifadə" konsepsiyasına əsaslanmadan formalaşdırmaq ciddi yanlışlıq olardı.

Zənnimizcə, azad edilmiş ərazilərdə aqroparkların yaradılması imkanları daha böyükdür, ancaq öncə bəzi problemlərin də həlli

---

[21] *https://www.alliedmarketresearch.com/*

gərəkdir. Öncə azad edilmiş ərazilərdə aparılacaq torpaq islahatının istiqamətini böyük təsərrüfatların - xüsusilə, aqroparkların formalaşmasına yönəltmək gərəkdir. Bu baxımdan mümkün mexanizm torpaq vergisi təkmilləşdirmələri ilə birgə kənd təsərrüfatı ilə məşğul olmaq niyyəti olmayanlardan torpaq paylarının dövlət tərəfindən bazar qiymətləri ilə alınması və həmin torpaqların iri fermerlərə möhlətli (15-20 illik) satışı ola bilər.

Dissertasiya işinin sonunda tədqiqatdan əldə olunan nəticələr ümumiləşdirilir, müvafiq təklif və tövsiyyələr irəli sürülür. Aparılan təhlillər aşağıdakı nəticələri çıxarmağa imkan yaradır:

1. Gəlirlər, təşkilati fəaliyyət və yeniləşmələrin reallaşdırılması əsasında təşəkkül tapan sahibkarlıq idarəetmə fəaliyyətidir və iqtisadi tərəqqi sahibkarlıq fəaliyyətindən irəli gələn yeniləşmələrlə reallaşır.

2. Kənd təsərrüfatı sektorunun tam liberallaşdırılmasının zəruruliyi barədə çağırışlara baxmayaraq, inkişaf etmiş ölkələrdə aqrar sfera əhatəli dövlət maliyyə yardımı əldə edir. ABŞ-da aqrar sahibkarlara dövlət maliyyə yardımı ÜDM-in 0,46%-nə, AB-də ÜDM-in 0,7 %-nə bərabərdir və sahibkarların məcmu gəlirinin ABŞ-da 12,1%-i, AB-də 19%-i təşkil edir.

3. Uğurlu islahatlar və aqrar sahibkarlığa fəal dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyi təminatını kifayət qədər yaxşılaşdırıb.

4. Azərbaycanın aqrar sferasında qiymət dispariteti mövcuddur. 2005-ci ili baza dövrü götürməklə, 2010-2020-ci illər üçün aparlan hesablamalara görə bu illərdə dənli bitkilər üçün paritet indeksi 0,64-0,96(2020-1,02) arasında dəyişib.Heyvandarlıq və südçülükdəisə paritet indeksi 0,88-0,77 və 0,97-0,73 arasında dəyişib,

5. Ölkədə qiymət disparitetinin zərərlərini minimallaşdirmaq üçün aqrar sahibkarlıq qənaətbəxş səviyyədə dəstəklənib. 2010-2020-ci illərdə kənd təsərrüfatına məcmu subsidiyalar 111,2 mln.manatdan 402,6 mln.manata qədər artıb. MD(məcmu dəstəklənmə) göstəricisi bu illərdə 363,4-1107,1 mln.manat arasında dəyişub.

6. Azərbaycanda hələlik təminatlı, tədarük və hədd qiymətlər sisteminin tətbiqi tam reallaşdırılmayıb. Ancaq məhsul subsidiyalarının prinsipcə tədarük qiymətlər sisteminin tətbiqi xarakterindədir və pambıqçılıq nümunəsində bu sistemin effektivliyi aşkarlanır.

7. Təminatlı qiymət sisteminin tətbiqi taxılçılıqda birgə aqrar sahənin digər sferalarında da, xüsusilə heyvandarlıq, südçülük, şəkər çuğunduru istehsalı, üzüm istehsalı və s.-i də əhatə etməlidir. Təkmil qiymət mexanizminin formalaşması baxımından hədd qiymətlərinin tətbiqi də gərəklidir.

8. Böyük təsərrüfatlat yaradılmasının ən optimal xəttini aqrar parkların formalaşdırılması, aqrar parkların daha effektiv fəaliyyətini isə smart kənd təsərrüfatı konsepsiyasına əsaslanmaq təşkil edir.

9. Xarici təcrübələr əsasinda dövlət tərəfindən kredit faizlərinin subsidiyalaşdırılması, kreditlərə dövlət təminatı verilməsi, kredit hesabina reallaşdırılan investisiya layihələrinin müəyyən hissəsinin subsidiyalaşdırılmasından istifadə effektiv ola bilər.

Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktik təkliflər aşağıdakı elmi-əsərlərdə öz əksini tapmışdır:

1.“Aqrar sektorda sahibkarlığın formalaşması və inkişafına qiymət siyasətinin təsiri” //AR TN Azərbaycan Dövlət İqtisad Universiteti İqtisad elmləri: nəzəriyyə və praktika rüblük nəzəri və elmi-praktik jurnal № 1, - 2011-ci il səh.152-158

2. “Aqrar sektorun inkişafında qiymət amili” //Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri yanvar-mart, - 2013-cü il səh.253-261

3. “Aqrar sektorun inkişafında sahibkarlıq fəaliyyətinin rolu” //Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri aprel-iyul, - 2013-cü il səh.56-69

4.“Aqrar sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadə yolları (xarici təcrübə)”//Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri iyul-sentyabr-2014-ci il səh.116-125
https://unec.edu.az/application/uploads/2015/03/ADIU-EX-3-2014-Az.pdf

5.“Aqrar sferada qiymət dispariteti səviyyəsinin müəyyənləşməsi məsələləri” //Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri aprel-iyun,- 2015-ci il səh.93-103

6.“Sahibkarlığın qiymət mexanizmi vasitəsilə dəstəklənməsinin mövcud vəziyyəti” //Azərittifaq Azərbaycan Kooperasiya Universiteti elmi-praktik jurnal № 4 - 2015-cı il səh.90-96

7. “Turizm sahəsində qiymətlərin formalaşması” //Azərbaycan

Turizm və Menecment Universiteti "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransının materialları 18-19 dekabr, - 2015-ci il səh.188-194

8. "Sahibkarlığın inkişafında aqroturizmin rolu" //AR TN Bakı Biznes Universiteti Ümummilli lider H.Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransın materialları Bakı, 05-06 may,- 2016-cı il səh.465-468

9. "Qiymət mexanizmi və sahibkarlığa dövlət dəstəyi: qarşılıqlı əlaqələr" //Bakı Biznes Universiteti Audit jurnalı № 2, - 2016-cı il səh.40-43

10."Aqrar sahibkarlığın inkişafına yönələn qiymət mexanizminin təkmilləşdirilməsi aspektləri" //AR Kənd Təsərrüfatı Nazirliyinin elmi-nəzəri junalı Azərbaycan Aqrar Elmi № 2, - 2016-cı il səh.144-149

11."Aqrar sektor və qiymət mexanizmi" //Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri yanvar-mart, - 2017-ci il səh.208-217

12.«Методы параметрического ценообразования в современных условиях» //журнал «Экономика и предпринимательство» г. Москва № 2, - 2017 год стр.102-105

13. "Aqrar sektorda təsərrüfatların iriləşməsi və sahibkarlığın inkişafının bəzi aspektləri" (Enlargement of farms and some aspects of enterprises in agriculture) //Azərbaycan Turizm və Menecment Universiteti Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnal Say 2, - 2017-ci il səh.97-108

14 "Multifunksionallıq və qiymət siyasəti" //AR TN Lənkəran Dövlət Universiteti Ümummilli lider H.Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Təbiət və humanitar elm sahələrinin inkişafı problemləri" mövzusunda Respublika Elmi Konfransının materialları 5-6 may, - 2017-ci il səh.60-61

15. «Материально-технического обеспечения как основной фактор повышения эффективности аграрного сектора» //журнал «Экономика и предпринимательство» г. Москва № 5, - 2017 год стр.916-920

16."Heydər Əliyev və aqrar sahibkarlıqda islahatlar" //Azərbaycan Universiteti, Vergilər Nazirliyinin Tədris Mərkəzi Ümummilli lider

H.Əliyevin anadan olmasının 94 və hakimiyyətə qayıdışının 24-cü ildönümünə həsr olunmuş "Milli mənəvi dəyərlərin qorunması Heydər Əliyevin amalı idi" mövzusunda V Beynəlxalq Elmi Konfransının materialları -Şamaxı, 23 iyun, - 2017-ci il səh.149-156

17."Aqrar sahədə sahibkarlığın inkişafının əsas istiqamətləri" //AMEA, AMEA İqtisadiyyat İnstitutu, Bakı Biznes Universiteti "Strateji iqtisadi islahatlar: Qabaqlayıcı vergi siyasəti" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransının materialları - 12 oktyabr, - 2017-ci il səh.179-183

18. "Методы государственного регулирования сельского хозяйства в странах ЕС(ЕЭС)» //Ukrayna Texnologiya Akademiyası Çerkas Dövlət Texnoloqiya Universiteti İqtisadi nəzəriyyə Beynəlxalq elmi-tədqiqat konfransının materialları - Çerkas ş. - 2017-ci il

19."Agrarian entrepreneurship development and pricing mechanism"/"Beynəlxalq təcrübədə aqrar sahibkarliğin inkişafi və qiymət mexanizmi" 14th International Conference on Knowledge, Economy and Management, - İstanbul ş. aprel, - 2018 səh.155-164 https://bulut.izu.edu.tr/index.php/s/BMbm3lNGTKIsaRD



Dissertasiyanın müdafiəsi “19” oktyabr 2022-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “16” sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.06.2022.
Kağızın formatı: 60x84 1/16. Sifariş 0 .
Həcmi ç.v. (41183 işarə). Tiraj 100.

“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809